# Regional turizmin inkişafı ilə bağlı sahibkarlarla görüş

Dövlət Turizm Agentliyi tərəfindən Xaçmazda regional turizmin inkişafı ilə bağlı sahibkarlarla keçirilən görüşdə məsələ geniş müzakirə olunmuş, problemlərin həlli yolları araşdırılmışdır. Konfrans xarakterli bu görüşdə rayonun əksər turizm mərkəzlərinin rəhbərləri iştirak etmişlər. Tədbiri **Dövlət Turizm Agentliyinin (DTA) turizm siyasəti və strategiyası şöbəsi turizm sənayesi və layihələrlə iş sektorunun baş məsləhətçisi Rauf Səfərov** açaraq görüşün məqsədi və əhəmiyyəti barədə iştirakçıları məlumatlandırmış, regionda turizmin inkişafı istiqamətində sahibkarların qarşısında duran vəzifələrdən danışmışdır.




Sonra sahibkarların çıxışları dinlənilmişdir. "Atlant" istirahət mərkəzinin direktoru Tahir Qədəşov, "İstisu" istirahət mərkəzinin icraçı direktoru Tizrui Teyyub, "Azərin" istirahət mərkəzinin nümayəndəsi Vüqar Rəhimli, "Malibu" istirahət mərkəzinin rəhbəri Rüfət Nəsirov, "Kardinal" istirahət mərkəzinin direktoru Şəfiqə Ramazanova, "Lotos" istirahət mərkəzinin direktoru Şahlar Nəsirov, "Ulduz" istirahət mərkəzinin icraçı direktoru Atakişi Əsədov və başqa sahibkarlar çıxış edərək fəaliyyət göstərdikləri Nabran zonasında yay istirahət mövsümündə işdə üzləşdikləri problemlərdən, qarşılaşdıqları çətinliklərdən danışmışlar. Sahibkarlar çıxışları zamanı qeyd etmişlər ki, əhalinin istirahəti üçün analoqu olmayan mavi Xəzərin sahilində yerləşən gözəl Nabranın potensial turizm imkanlarından layiqincə istifadə edə bilmirik. Ərazidə lazımi infrastruktur şəraiti demək olar ki, yoxdur. Yollar yararsız vəziyyətdədir. Turizm obyektlərinin qazlaşdırılması illərdir ki, çox ciddi problem olaraq qalır. Obyektlərdə qaz sayğaclarının quraşdırılması üçün tələb olunan məbləğ həddindən artıq yüksək olduğundan, sahibkarlar bu xidmətdən imtina etməli olurlar. Ərazidə ən təhlükəli və acınacaqlı vəziyyət mərkəzləşdirilmiş kanalizasiya sisteminin olmaması, çirkab sularının çimərlik zonasına axıdılmasıdır. Daha bir problem Nabran istirahət zonasında bir dənə də olsa valyutadəyişmə məntəqəsinin olmamasıdır.

Turizm obyektlərinin reklamının təşkilində də sahibkarlar çətinliklərlə üzləşirlər. Yay mövsümündə ərazilərin məişət tullantılarının daşınmaması burada antisanitariya vəziyyəti yaradır. Nabran zonasında daha bir problem isə yerli icra orqanları və bələdiyyələr tərəfindən mal-qaranın çimərlik ərazisinə buraxılmaması üçün lazımi tədbirlərin görülməməsidir.

Tədbirdə **DTA-nın turizm siyasəti və strategiyası şöbəsinin böyük məsləhətçisi Fərid Əliyev, turizm məhsullarının hazırlanması üzrə mütəxəssis Vahid Şükürov və Xaçmaz Turizm informasiya mərkəzinin direktoru Vasif Əhmədov** çıxış edərək sahibkarlara tövsiyələrini vermiş, onları maraqlandıran bir sıra sualları cavablandırmışlar. Sonda sahibkarlarla belə görüşlərin mütəmadi olaraq keçirilməsi təklifi irəli sürülmüşdür.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

Respublika.- 2019.-11 aprel.- S.4